# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

SAYI 17-18 (13.387)
CÜMƏ 7 MART 2025-ci il

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## İ.KOBAXİDZE: "GÜRCÜSTAN ORTA DƏHLİZİN İNKİŞAFINA XÜSUSİ ÖNƏM VERİR"



Bunu Özbəkistanda səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze həmkarı Abdulla Aripovla görüşü zamanı deyib. Hökumət başçısı Gürcüstanın tarixən Avropa və Asiyanı əlaqələndirən vacib strateji mövqeyi olduğunu vurğulayıb.

*"Ölkələrimiz arasında siyasi əməkdaşlıq çox vacibdir. Biz ticarət tərəfdaşlığının daha da artırılmasında maraqlıyıq. Özbəkistanın investisiya mühiti gürcü investorlar üçün çox cəlbedici ola bilər və Gürcüstan da potensial investorlara çox maraqlı investisiya mühiti təklif edir. Biz Orta Dəhlizin inkişafına xüsusi önəm veririk. Gürcüstan strateji mövqeyə malikdir və tarixən Avropa ilə Asiyanı, Qərblə Şərqi birləşdirib. Biz bu strateji mövqedən maksimum yararlanmaq istəyirik və Gürcüstanla Özbəkistan arasında əməkdaşlıq bu istiqamətdə çox səmərəli və faydalı ola bilər",* - deyə Baş nazir bildirib.

## Ş. PAPUAŞVİLİ: "BALTİKYANI ÖLKƏLƏR GÜRCÜSTANIN SUVEREN SİYASƏT YÜRÜTMƏSİNİ QƏBUL ETMƏK İSTƏMİR"

***Baltikyanı ölkələr Gürcüstanın suveren siyasət yürütməsini qəbul etmir və ondan Rusiyaya qarşı açıq mövqe nümayiş etdirməyi tələb edirlər.*** Bunu parlamentin sədri Şalva Papuaşvili bildirib.

Spiker Baltikyanı ölkələrin Gürcüstana qarşı sanksiyalarını tənqid edib. O, Estoniya, Latviya və Litvanın rəsmi şəxslərə qarşı sanksiyalar tətbiq etməsini "əsassız" adlandırıb və bunun Gürcüstan hökumətinə təzyiq məqsədi daşıdığını bildirib. Papuaşvili qeyd edib ki, Gürcüstanın NATO və beynəlxalq təhlükəsizlik məsələlərinə verdiyi töhfə Baltik-yanı ölkələrdən qat-qat çox olub, lakin buna baxmayaraq, rəsmi Tbilisi haqsız tənqidlərə məruz qalır.



*"Həqiqi dostluq qarşılıqsız olur, amma Baltikyanı ölkələr hesablanmış dostluq nümayiş etdirir",*- deyə parlament sədri vurğulayıb.

Papuaşvili əlavə edib ki, Gürcüstanın stabilliyini və sülh siyasətini dəstəkləmək əvəzinə, bəzi Qərb ölkələri hökumətə təzyiq göstərmək üçün demokratiya məsələsini bəhanə kimi istifadə edir.

### XONÇALI NOVRUZ GƏLİR

## YEL ÇƏRŞƏNBƏSİ

Baharın nəfəsi sayılan Yel Çərşənbəsi bu il martın 11-də qeyd ediləcək. Bu çərşənbə havaların isinməsini, küləklərin oyanmasını və baharın nəfəsini simvolizə edir. İnanclara görə, məhz bu gündə küləklər oyanır, baharın nəfəsi duyulmağa başlayır və təbiət tam canlanmağa hazırlaşır.

Xalq arasında belə bir inanc var ki, yel torpağı hərəkətə gətirir, onu canlandırır və yazın gəlişini müjdələyir. Bu gün yel əsərək ağacları canlandırır, torpağa yeni nəfəs verir, quşlar yuva qurur, ağaclar çiçəklənməyə hazırlaşır. Əcdadlarımız küləklərin xüsusi gücə malik olduğunu düşünürdülər. Yelin təkcə təbiəti deyil, həm də insan ruhunu təmizlədiyinə, köhnə dərd-sərləri uzaqlaşdırdığına inanırdılar.

İnsanlar bu çərşənbədə küləyə doğru üz tutub arzularını pıçıldayırlar. İnanclara görə, külək arzuları göyə apararaq Tanrıya çatdırır. Əgər çərşənbə günü istiqanlı və xoş küləklər əsərsə, bu, uğurlu ilin başlanğıcı sayılır. Əgər güclü və soyuq küləklər əsərsə, bu, ilin bir qədər çətin keçəcəyinə işarə kimi yozulur.

Xalq arasında belə bir inanc var ki, Yel Çərşənbəsində əsən külək insanın gələcək




həyatına işarə edir: Şərqdən əsən külək – xoş xəbər gətirir. Qərbdən əsən külək – sevdiklərindən xəbər gətirir. Cənub küləyi – bərəkət və sevinc gətirir. Şimal küləyi – ehtiyatlı olmağı tələb edir.

***Küləklərin oyanışı*** – Bu çərşənbədə əsən küləklərin qışın son izlərini apararaq yazı gətirdiyinə inanılır. ***Arzuların yerinə yetməsi*** – Xalq arasında bir inancla bağlı belə deyirlər: "Yel apardığını qaytarmaz." Buna görə də insanlar bu çərşənbədə arzu tutar, küləyə pıçıldayar və onun arzularını göylərə daşıyacağına ümid edərlər. ***Ocaqdan kül götürməmək*** – İnanca görə, Yel Çərşənbəsi günü evin ocağından kül götürmək olmaz, çünki bu, evin bərəkətini aparar. ***Bayram ab-havası*** – Hər çərşənbədə olduğu kimi, bu çərşənbədə də ailələr bayrama son hazırlıqları görməyə başlayır, evlərdə bayram təmizliyi aparılır, şirniyyatlar bişirilir və süfrələr bəzədilir. Yel Çərşənbəsi həm də azadlıq və yenilənmə çərşənbəsidir. O, insanları qışın yorğunluğundan azad edir, baharın gəlişini ruhən hiss etməyə imkan yaradır.

***Yel Çərşənbəniz mübarək! Qoy, küləklər sizə xoş xəbərlər və gözəl arzular gətirsin, səməniniz isə hər zaman yaşıl və bərəkətli olsun!***

## AĞ EVDƏ GÖRÜŞ KEÇİRİLİB



ABŞ prezidenti Donald Tramp və Ukrayna prezidenti Volodimer Zelenski Ağ Evdə görüşüblər. Görüşdə jurnalistlərə iştirak edmək və liderlərə sual vermək imkanı da verilib. Görüşün başlanğıcında Donlad Tramp "faydalı qazıntılar" müqaviləsinin "ABŞ üçün böyük öhdəlik" olacağını və ABŞ tərəfinin "nadir torpaq metallarının bir hissəsini qazmağı və istismarı" "səbirsizliklə" gözlədiyini söyləyib. Zelenski sözugedən sənədin Ukrayna üçün irəliyə doğru bir addım olacağına ümid etdiyini bildirib.

Jurnalistlərdən biri Trampdan Putinin tərəfini tutduğuna dair ittihamlara necə cavab verəcəyini soruşduqda, Tramp bildirib ki, o, ABŞ-nin və sülhün tərəfindədir və müharibəni bitirmək niyyətindədir. Vitse-prezident Cey Di Vens Trampın mövqeyini dəstəkləyərək, Bayden administrasiyasının nümayiş etdirdiyi kimi, Putinə qarşı "sərt ritorika"nın Rusiyanın Ukraynaya təcavüzünün qarşısını almadığını vurğulayıb. Vensin arqumentlərinə cavab olaraq Zelenski xatırladıb ki, münaqişə Baydenin dövründə deyil, hələ 2014-cü ildə, Barak Obamanın prezidentliyi dövründə başlayıb, sonra Trampın dövründə də davam edib. Fikir mübadiləsi zamanı ABŞ prezidenti Zelenskiyə səsini ucaldaraq deyb: *"Əbləh prezident [Bayden] tərəfindən verilən 350 milyard dollarlıq Amerika hərbi yardımı olmasaydı, bu müharibə iki həftəyə bitərdi".* Zelenski gülümsəyərək istehza ilə cavab verib ki, *"Putindən (üç gün ərzində Kiyev) oxşar sözləri eşitdim".* Buna cavab olaraq Tramp belə rəy bildirib ki, Zelenski ilə ***"iş qurmaq asan olmayacaq".*** Şifahi mübahisədən sonra iclasın qapalı hissəsi qısa zamanda yekunlaşıb. Tramp Zelenskinin sülhə hazır olmadığını deyib və ondan Ağ Evi tərk etməsini istəyib. Birgə mətbuat konfransı ləğv edilib və danışıqlar heç bir nəticə verməyib.

### TƏHSİL

## BİRİNCİ SİNİF ŞAGİRDLƏRİNİN QEYDİYYATI BAŞLAYIR

Martın 10-da məktəblərdə birinci sinif şagirdləri üçün qeydiyyatın birinci mərhələsinə başlanılacaq. Bu barədə Təhsil və Elm Nazirliyi məlumat yayıb. Bildirilir ki, ***I mərhələ*** fiziki qüsurlu və xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulub. ***II mərhələ*** - mayın 2-dən mayın 20-dək kimin bacı-qardaşları istədiyi məktəbdə oxuyur; valideyni arzu olunan məktəbin işçisidir, iki və ya daha çox uşağı eyni vaxtda birinci sinfə daxil olan ailələrə şamil olunur. ***III mərhələ*** mayın 22-dən başlayacaq və iyunun 17-dək davam edəcək, burada qeydiyat online şəkildə valideyn/qanuni nümayəndə tərəfindən həyata keçiriləcək. ***IV mərhələ*** - iyunun 30-dan iyulun 15-dək məktəblərdə həyata keçiriləcək. Bu mərhələdə I, II və III mərhələlərdə qeydiyyatdan keçə bilməyən və ya qeydiyyatını dəyişmək istəyən şagirdlər yerdə qalan yerlərə və ya əvvəlki mərhələlərdə boşalmış yerlərə qeydiyyatdan keçəcəklər. Hazırda qeydiyyat Təhsilin İdarə Edilməsi İnformasiya Sisteminin rəsmi internet saytında **www.registration.emis.ge** vasitəsilə aparılır. Göstərilən müddətdə sənədlər təqdim edilmədikdə, qeydiyyat avtomatik olaraq ləğv ediləcək. Birinci sinfə qəbul üçün valideyinlərdən və uşaqlardan aşağıdakı sənədlər tələb edilir: 1.) Şagirdin qanuni nümayəndəsinin yaşayış yeri və telefon nömrəsi haqqında məlumat. 2.) Gürcüstanda yaşayış yeri ilə bağlı sənədin surəti (varsa). Sənəd xarici dildə təqdim edilərsə, onun gürcü dilində tərcümə edilmiş versiyası da olmalıdır. 3.) Şagirdin doğum haqqında şəhadətnaməsinin və ya şəxsiyyətini təsdiq edən sənədin surəti və Gürcüstanda yaşayış yeri haqqında sənədin surəti (varsa). Sənəd xarici dildə təqdim edilərsə, onun gürcü dilində tərcümə edilmiş versiyası da olmalıdır. Məlumat üçün bildirək ki, Gürcüstanın təhsil, elm və gənclər nazirinin qərarına əsasən, Gürcüstanın ***"Ümumi təhsil haqqında" qanununa məktəb yaşı ilə bağlı dəyişiklik edilib. Belə ki, 2025-2026-cı tədris ilində dekabrın 31-dək 6 yaşı tamam olacaq uşaqlar I sinfə qeydiyyatdan keçə bilərlər.***

## PARLAMENT TELEVİZİYA VƏ RADIO YAYIMI İLƏ BAĞLI QANUN LAYİHƏLƏRİNİ BİRİNCİ OXUNUŞDA TƏSDİQLƏYİB



***Gürcüstanın parlament komitəsi televiziya və radio yayımı ilə bağlı təqdim olunan qanunvericilik dəyişikliklərini birinci oxunuşda təsdiqləyib.***

Layihələrin bu həftə plenar iclasda müzakirəyə çıxarılması gözlənilir.

"Gürcü Arzusu" və "Xalqın Gücü" fraksiyalarının birgə təşəbbüsü ilə "Yayım haqqında" qanuna iki müstəqil qanun layihəsi təqdim edilib.

**Birinci layihəyə əsasən:**

•Televiziya və radio şirkətlərinə "xarici qüvvələrdən" maliyyə vəsaiti və ya maddi yardım almaq qadağan ediləcək.

•Xarici təşkilatların media qurumlarına maliyyə yardımı, proqramların hazırlanması və yayımlanmasının birbaşa və ya dolayısı ilə maliyyələşdirilməsi qadağan ediləcək.

**İkinci qanun layihəsinə görə:** Layihənin qəbulundan sonra Kommunikasiya Tənzimləmə Komissiyasına televiziya və radioları xəbərdarlıq etmək və cərimələmək səlahiyyəti veriləcək. Aşağıdakı hallarda cərimələr nəzərdə tutulur:

•Xəbər proqramlarında "ədalətlilik" və "qərəzsizlik" prinsiplərinin pozulması;

•Mövzuların işıqlandırılmasında balansın qorunmaması;

•Müsahibə və ya telefon danışığının iştirakçısının icazəsi olmadan efirə verilməsi (yalnız açıq çəkilişin mümkün olmadığı hallar istisnadır);

•Canlı yayıma daxil olan zənglərin qərəzli seçilməsi, yalnız bir baxış bucağının təqdim edilməsi;

•Məktəblər, xəstəxanalar, həbsxanalar, polis bölmələri və ya təcili yardım maşınlarında çəkilişlərin yalnız rəsmi icazə ilə həyata keçirilməsi;

•Tok-şoularda yalnız bir qonağın iştirakı ilə əks tərəfin fikirlərinin işıqlandırılmaması.

Qanun layihəsinə əsasən, əgər Tənzimləmə Komissiyası media qurumunun etik standartları pozduğunu müəyyən edərsə, əvvəlcə xəbərdarlıq göndərəcək və pozuntunun aradan qaldırılması üçün vaxt verəcək. Müvafiq addım atılmasa, media qurumu cərimələnəcək.

## 8 MARTIN SEHRİ




Baharın ilk günləri… Təbiət yuxudan oyanır, günəş artıq əvvəlkindən bir az da mehribandır, ağacların tumurcuqları həyat doludur. Bu oyanışın içində bir gün var ki, o yalnız təbiətin deyil, həm də sevginin, qayğının, fədakarlığın simvoludur – 8 Mart, Beynəl-xalq Qadınlar Günü.

Bu gün, yalnız qadın olmağın gözəlliyini deyil, həm də anaların fədakarlığını, müəllimlərin işığını, zəhmətkeş qadınların əzmini qeyd etmək günüdür. O, dünyanı sevgi ilə bəzəyən, varlığı ilə ona rəng qatan qadınların dəyərini xatırladan bir gündür. O qadınların ki, bir ana kimi bizi dünyaya gətirir, laylamızla ilk sevgisini bizə bəxş edir, həyatımızın hər anında bizə dayaq olur. Onlar bizim üçün yalnız ailədə deyil, hər yerdə – məktəbdə, işdə, cəmiyyətdə ilham mənbəyinə çevrilirlər.

Bəzən bir qadının gülümsəməsi qaranlıq günü işıqlandırır, bircə kəlməsi ruhsuz bir dünyaya ümid gətirir. Onlar yalnız incə və zərif deyil, həm də güclüdürlər – övlad böyüdən, ailə qurub dünyanı gözəlləşdirən, hər çətinliklə mübarizə aparan, qəlblərində sonsuz məhəbbət daşıyan güclü qadınlar…

Bu gün, qadınların günüdür. Əlləri qırış-qırış olub övladını sevən anaların, gözlərində işıq parlayan gənc qızların, həyatın keşməkeşlərindən keçib yenə də ümidini itirməyən qadınların. Hər birinin hekayəsi fərqlidir, amma hamısının qəlbi eyni sevgi ilə döyünür.

Gəlin, bu gün yalnız gül bağışlamayaq. Onlara olan sevgimizi, hörmətimizi, minnətdarlığımızı hiss etdirək. Təkcə 8 Martda deyil, hər gün onların dəyərini bilək, çünki qadın – həyatın özüdür.

Təkcə bu gün yox, sabah da, o biri gün də – daim üzünüz gülsün, əziz xanım-lar. Unutmamalıyıq ki, bəşə-riyyətin yarıdan çoxunu təşkil edən qadınlar, bu zərif məxluqlar həyatın mənası, bəzəyi və əbədi gözəlliyidir.

Bu gün – anaların, müəllim-lərin, zəhmətkeş qadınların, nənələrin, qızlarımızın bayra-mıdır. Onların varlığı dünyanı daha gözəl, daha isti edir. Bir gül, bir söz, bir təbəssüm – bu gün onları xoşbəxt etmək üçün bəs edər. Amma unutmayaq ki, qadınların dəyəri təkcə 8 Martda deyil, hər gün bilinməlidir.Bütün qadınları bu gözəl gün münasibətilə ürəkdən təbrik edirəm! Həyatınız bahar kimi rəngarəng, sevginiz dəniz kimi sonsuz, ömrünüz Günəş kimi parlaq olsun!

**Aytən Fətullayeva**

## GUAM PARLAMENT ASSAMBLEYASINA SƏDRLİK AZƏRBAYCANDAN GÜRCÜSTANA KEÇİB

***Azərbaycan GUAM Parlament Assambleyasına sədrliyi Gürcüstana təhvil verib.*** GUAM Parlament Assambleyasının onlayn iclası keçirilib və toplantıda quruma üzv ölkələrin parlament nümayəndələri iştirak ediblər. Sessiya çərçivəsində birgə komitə iclası və büro toplantısı keçirilib, yekun sənədin son variantı təsdiqlənib və Assambleya iclasında çıxışlar edilib. Gürcüstan parlamentinin Hüquq məsələləri komitəsi sədrinin birinci müavini Tornike Çxeişvili çıxışında GUAM üzv ölkələri arasında sektoral əməkdaşlığın təşviqinin




hər zaman düzgün istiqamətdə atılmış addım olduğunu bildirib. O vurğulayıb ki, bu, ümumi imkanların araşdırılmasına və qarşılıqlı inkişafa töhfə verir. Çxeişvilinin sözlərinə görə, dialoqun, bilik və təcrübə mübadiləsinin, eləcə də yeni layihə və təşəbbüslərə üstünlük verilməsinin vacibliyi ön planda olmalıdır. O qeyd edib ki, GUAM çərçivəsində ticarət, rabitə, energetika və nəqliyyat sahələrində geniş imkanlar mövcuddur və bu istiqamətdə milli parlamentlər də mühüm rol oynaya bilərlər. T. Çxeişvili çıxışında son illərdə GUAM regionun artan çağırışlarla üzləşdiyini, bunun üzv ölkələrin təhlükəsizliyi, suverenliyi və ərazi bütövlüyü üçün təhdid yaratdığını vurğulayıb. O, regionda sülhün qorunmasının vacibliyini qeyd edərək, Gürcüstanın bu istiqamətdəki prioritetlərini deputatların diqqətinə çatdırıb. Sessiyanın sonunda Assambleyanın yekun sənədi – Kommunike qəbul edilib. GUAM Parlament Assambleyasının sədrliyi bir il müddətinə Azərbaycandan Gürcüstana keçib.

## GÜCLÜ QARIN ƏHALİYƏ VURDUĞU ZİYANI ÖYRƏNMƏK ÜÇÜN XÜSUSİ KOMİSSİYA YARADILIB



***Güclü qar nəticəsində əhaliyə dəymiş ziyanı xüsusi komissiya öyrənəcək.***

Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze müvafiq qərar qəbul edib.

Hökumət administrasiyasının mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, komissiya güclü qarın vurduğu ziyanı ətraflı araşdıracaq, bundan sonra isə müvafiq qərarlar qəbul ediləcək.

*"Müvafiq olaraq, güclü qar yağışı nəticəsində dağılmış evlərin bərpası dövlət tərəfindən həyata keçiriləcək. Təmir oluna bilməyən evlərə sahib vətəndaşlar alternativ mənzillərlə təmin ediləcək. Zədələnmiş dam örtüklərinin təmirinə və digər kiçik infrastruktur işlərinə dərhal başlanılacaq və qısa müddət ərzində tamamlanacaq",* - deyə məlumatda qeyd olunur.

## Sitat guşəsi



"Bu sanksiyalar bizim üçün heç bir şey ifadə etmir. Avropa bürokratiyasında dərin dövlətlər tərəfindən təzyiqlər var və gələcəkdə daha ağır zərbələr də ola bilər, amma bunun fərqi yoxdur".

**Mamuka Mdinaradze,**
**"Gürcü Arzusu" fraksiyasının lideri.**



"Avropa Rusiyadan neft və qaz almağa Ukraynanın müdafiəsinə xərclədiyindən daha çox pul sərf edib. Hətta çox, daha çox".

***Donald Tramp,***
***ABŞ-nin prezidenti.***



"Biz istəyirik ki, bu müharibə bitsin, lakin Rusiya bunu dayandırmır və hava hücumları ilə terroru davam etdirir. Son bir həftə ərzində Ukrayna şəhərlərinin məhv edilməsi və insanların qətlə yetirilməsi üçün 1 050-dən çox hücum dronu, 1 300-ə yaxın hava bombası və 20-dən çox raket atılıb".

***Volodimer Zelenski,***
***Ukrayna prezidenti.***



"Razılığa gəldik ki, istənilən davamlı sülh Ukraynanın suverenliyinə və təhlükəsizliyinə təminat verməlidir və Ukrayna danışıqlar masası arxasında olmalıdır. Sülh razılaşması olacağı təqdirdə, gələcəkdə istənilən hərbi müdaxilənin qarşısını almaq üçün Ukraynanın müdafiə qabiliyyətini gücləndirməyə davam edəcəyik".

***Kir Starmer,***
***Böyük Britaniyanın Baş naziri.***



"Türkiyə olaraq beynəlxalq arenada ədalətin və bütövlüyün qorunmasına önəm veririk. Bizim bu baxışımız qlobal miqyasda Türkiyənin beynəlxalq inteqrasiyasını hədəfləyir. Son illərdə BMT-nin əsas missiyası və beynəlxalq proseslərə təsiri zəifləyib. Bu kontekstdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür" çağırışı daha ədalətli bir dünyanın mümkünlüyünü vurğulayır".

***Fəxrəddin Altun,***
***Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri.***



"Həqiqəti bərqərar etmək, qurbanlara ədaləti çatdırmaq və qanunun aliliyini təmin etmək üçün beynəlxalq hüquqi standartlara riayət etməklə ədalətli məhkəmə araşdırması vacibdir. Yalnız həqiqəti söyləmək, yaraları sağaltmaqla sülh və barışıq cəzasızlığa qalib gələcək".

***Ayxan Hacızadə,***
***Azərbaycan XİN-in mətbuat katibi.***

## REGİON XƏBƏRLƏRİ

### Marneuli: ANALAR GÜNÜ MÜNASİBƏTİLƏ MÜHARİBƏDƏ HƏLAK OLANLARIN AİLƏLƏRİNƏ BAŞ ÇƏKİLİB



***Analar Günü ilə əlaqədar, Marneuli Bələdiyyəsinin meri Kənan Ömərov əməkdaşları ilə birlikdə, Gürcüstanın bütövlüyü uğrunda gedən döyüşlərdə əslən Marneulidən olan və Vətən uğrunda canlarından keçmiş qəhrəmanların analarını ziyarət edib, onları simvolik hədiyyələrlə 3 Mart münasibətilə təbrik edib.***

*"Analar Günü – qayğı, sevgi və minnətdarlıq simvoludur. Bütün anaları bu gözəl gün münasibətilə təbrik edir və onlara sağlamlıq, əmin-amanlıq və övladlarının uğurları ilə sevinməyi arzulayıram. Qəhrəman anaları xüsusi hörmətlə təbrik edirəm, onların övladları vətən uğrunda canlarını fəda ediblər"* – deyə Marneuli Bələdiyyəsinin meri Kənan Ömərov bildirib.

### Saqareco: "BERİKAOBA" KEÇİRİLİB



***Saqareco Bələdiyyəsinin kəndlərində - Böyük və Kiçik Çaylurıdə ənənəvi "Berikaoba" tədbiri keçirilib.***

Saqareco Mədəniyyət Obyektləri Assosiasiyasının təşkilatçılığı və Saqareco Bələdiyyəsi meriyasının dəstəyi ilə açıq səma altında bayram konserti, həmçinin gürcü güləşi üzrə yarış keçirilib.

"Berikaoba" Böyük və Kiçik Çayluri kəndlərində qədim ənənəvi tədbirdir. Beriklər kənddə qapı-qapı gəzib rəqs edir, mahnı oxuyur, sakinlərdən pul və hədiyyələr alır, axşamlar isə ziyafət verirlər.

Tədbirdə ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Davit Sonqulaşvili, Kaxeti üzrə dövlət müvəkkili Qiorqi Aladaşvili, Saqareco Bələdiyyəsinin meri Avtandil Qulikaşvili və Şəhər Şurasının sədri Aleksi Qilaşvili ilə yanaşı yerli əhali də iştirak ediblər.

### Qardabani: TƏLƏBƏLƏRƏ MALİYYƏ YARDIMI PROQRAMI

***Tələbələrə maliyyə yardımı proqramı çərçivəsində Qardabani Bələdiyyəsində qeydiyyatda olan və yüksək akademik göstəricilərə malik tələbələr üçün yaz semestr təhsilinin maliyyələşdirilməsi üçün ərizələr qəbul edilir.***



Bələdiyyəyə təqdim ediləcək sənədlər:

- Ərizə;
- Yardımı alanın (benefisiarın) şəxsiyyət vəsiqəsinin surəti;
- Məcburi köçkün şəxsin/köçkün şəxsin şəxsiyyət vəsiqəsinin surəti (məcburi köçkün/köçkün halında);
- Onların qeydiyyatda olduqları yerli özünüidarəetmə vahidinin büdcəsindən bu qaydada nəzərdə tutulmuş analoji yardımı alanlar olmadığı barədə bildiriş (məcburi köçkünlərə/köçkünlərə münasibətdə);
- Tıbbi Sosial ekspertiza aktının cıxarılışı və/və ya sosial xidmət agentliyindən əlilliyi olan şəxsin statusu haqqında arayış (əlil olduqda);
- Fəal tələbənin təhsil göstəriciləri (balların qiymətləndirilməsi), verginin məbləği və ödənilmə müddəti haqqında ali təhsil müəssisəsindən arayış (4-cü maddənin "b" bəndində olduqda);
- Akkreditə olunmuş ali təhsil müəssisəsindən bank rekvizitlərinə istinadla hesab-faktura (invois)(4-cü maddənin "b" bəndi olduqda).

Tələbələrə maliyyə yardımı proqramı yüksək akademik göstəricilərə malik olan bakalavr/magistr tələbələrinin semestr təhsil haqqının maliyyələşdirilməsi üçün 500 lari, əlil tələbələrin isə 700 lari məbləğində semestr haqqının birgə maliyyələşdirilməsini nəzərdə tutur, Sosial iş və ya əmək terapiyası üzrə bakalavr təhsili səviyyəsində təhsil alan tələbələr üçün semestr təhsili tam olaraq Qardabani bələdiyyəsi tərəfindən maliyyələşdiriləcək.

### Dmanisi: KOBA MURADAŞVİLİ RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMANLARI TƏBRİK EDİB

***Dmanisi Bələdiyyəsinin meri Koba Muradaşvili bütün müsəlmanları müqəddəs Ramazan ayının gəlişi münasibətilə təbrik edib:***

"Dmanisi bələdiyyəsində yaşayan bütün müsəlman həmvətənlərimizi müqəddəs Ramazan ayının başlanması münasibətilə ürəkdən təbrik edirəm. Hər kəsə vahid və güclü Gürcüstanda dinc yanaşı yaşamasını arzulayıram".




## BEYNƏLXALQ HƏYAT

### DONALD TRAMP: "UZUNMÜDDƏTLİ SÜLH OLACAQ VƏ ÜMİD EDİRƏM Kİ, BU, TEZ BİR ZAMANDA BAŞ VERƏCƏK"



***"Sülhün tez bir zamanda əldə olunmaması onun ümumiyyətlə baş verməməsi ilə nəticələnə bilər."***

Bu barədə ABŞ Prezidenti Donald Tramp Vaşinqtonda Böyük Britaniyanın Baş naziri Kir Starmerlə keçirdiyi birgə mətbuat konfransında bildirib.

Jurnalistlər Trampdan NATO-nun 5-ci maddəsini dəstəkləyib-dəstəkləmədiyini və bu maddənin Avropalı sülhməramlıların Ukraynaya göndərilməsi halında tətbiq olunub-olunmayacağını soruşublar.

*"Mən NATO-nun 5-ci maddəsini dəstəkləyirəm, lakin düşünmürəm ki, onu tətbiq etməyə ehtiyac yaranacaq. Hesab edirəm ki, biz çox uğurlu və uzunmüddətli bir sülh əldə edəcəyik və ümid edirəm ki, bu, tez baş verəcək.*

*Əgər sülh tez bir zamanda təmin olunmasa, ümumiyyətlə baş verməyə bilər. Və biz bunu iki əsas səbəbə görə istəyirik. Birinci - insani baxımdan, əsgərlərin atəşə tutulmasını dayandırmaq istəyirəm, çünki əsasən əsgərlər bu müharibədən əziyyət çəkirlər, şəhərlər dağıdılıb.*

*İkinci - milyardlarla dolların heç vaxt olmamalı olan bir müharibəyə xərclənməsini istəmirəm. Nə Baş nazir Starmer, nə də başqa birisi bunu istəyir"*, - deyə Tramp vurğulayıb.

Daha sonra başqa bir jurnalist Trampdan 28 fevralda Ukrayna Prezidenti Volodimer Zelenski ilə görüşü zamanı ona "diktator" dediyinə görə üzr istəyib-istəməyəcəyini soruşub.

Tramp isə cavabında bildirib: *"Düşünürəm ki, sabah çox yaxşı bir görüşümüz olacaq, biz bir-birimizi yaxşı anlayacağıq. Mən ona böyük hörmət bəsləyirəm. Ukraynaya çoxlu hərbi texnika və böyük məbləğdə vəsait verdik və onlar çox cəsarətlə mübarizə apardılar.*

*Kimlərsə bu texnikadan istifadə etməli idi və onlar bu baxımdan çox cəsarətli oldular"*, - deyə ABŞ Prezidenti əlavə edib.

### VLADİMİR PUTİN: "ABŞ-NİN YENİ ADMİNİSTRASİYASI İLƏ İLK TƏMASLAR MÜƏYYƏN ÜMİDLƏR YARADIR"

***Rusiya prezidenti Vladimir Putin, Rusiya Federal Təhlükəsizlik Xidməti (FSB) Şurasının genişləndirilmiş iclasında çıxış edərək, ABŞ-nin yeni administrasiyası ilə ilk təmasların ümidverici olduğunu bildirib.***



*"Hamımız dünyanın necə sürətlə dəyişdiyini görürük. Bu kontekstdə qeyd etmək istəyirəm ki, ABŞ-nin yeni administrasiyası ilə ilk təmaslar müəyyən ümidlər yaradır"*, – deyə Putin vurğulayıb.

Rusiya prezidenti həmçinin bəyan edib ki, Qərb dairələri Moskva və Vaşinqton arasında münasibətlərin bərpasını istəmir və bu dialoqu pozmağa çalışır.

*"Biz başa düşürük ki, Rusiya-Amerika əlaqələrinin bərpası hamını sevindirmir. Qərb elitasının bir hissəsi dünyada qeyri-sabitliyin davam etməsində maraqlıdır. Bu qüvvələr başlanmış dialoqu pozmağa çalışacaqlar və biz bunu aydın görürük"*, – deyə Putin əlavə edib.

Onun sözlərinə görə, Rusiya ABŞ-la münasibətlərin inkişafına açıqdır, lakin bu prosesin müəyyən qüvvələr tərəfindən əngəllənməyə çalışıldığını müşahidə edirlər.

### ABDULLAH ÖCALAN TƏRƏFDARLARINA MÜRACİƏT ETDİ: "SİLAHI YERƏ QOYUN"

***Xalqların Bərabərlik və Demokratiya Partiyasının (DEM Parti) nümayəndələri bu gün Kürdüstan İşçi Partiyası (PKK) terror təşkilatının Türkiyədə həbsdə olan lideri Abdullah Öcalanla görüşüb və onun mesajı nümayəndə heyəti tərəfindən canlı yayımda ictimaiyyətə çatdırılıb.*** Müraciətin detallarını "Sabah" qəzeti yayıb. Öcalan PKK-nın tarixi inkişafı ilə bağlı açıqlamalar verərək, artıq bu quruluşun sona çatmasının lazım olduğunu bildirib. O, kürd və türk xalqlarının min illər boyu davam edən ittifaqının tarixi əhəmiyyətini vurğulayıb. Öcalan demokratik cəmiyyətin əhəmiyyətini qeyd edərək bildirib ki, müasir dövrdə kürdlər demokratik mənada təşkilatlanmalıdırlar. Bu səbəbdən də o, silahları yerə qoymağa çağırış edib və "bu tarixi məsuliyyəti" öz üzərinə götürüb. Nəhayət, Öcalan PKK-nın özünü ləğv etməsinin lazım olduğunu, dövlət və cəmiyyətlə bütövləşmək üçün bu qərarın qəbul edilməsini açıqlayıb. Abdullah Öcalanın çağırışına qruplaşmanın Suriya qolu kimi tanınan PYD-nin lideri Salih Müslümdən cavab gəlib. O, Öcalanın çağırışını dəstəkləyib.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**GÜNƏŞUM** is. Şumlanıb günəş altında qalmış əkilməyən yer.

**GÜNGÖRMƏZ** sif. 1. Heç zaman gün düşməyən, günəş işığı görməyən.

*Gün-görməz zirzəmi.*

2. *məc.* Heç kəsin görmədiyi; gizli, məxfi. [Nemətullayev] *Mənzər vasitəsilə bacaqlı, kəmər, saat və sair bu kimi qiymətli şeylər alaraq yaxın şəhərdəki baldızının güngörməz sandığında saxlardı.*

S. Rəhimov.

**GÜN-GÜNORTA** is. Günorta, günəşin günortaya yaxınlaşdığı vaxt (vaxtın, günün keçmək üzrə olduğunu bildirir). *Dağın zirvəsində gün-günortadır; Dərənin dibini haqlayır axşam.*

M. Araz.

**GÜN-GÜZƏRAN** *is.* Güzəran, dolanacaq, yaşayış.

**GÜNÜ** *is.* 1. Köhnə məişətdə: birinci arvadın üstünə alınan ikinci və ya üçüncü arvad.

*Hacı evə günü gətirmək niyyətini Münəvvər xanımın qulağına elə doldurdu ki, arvadın heç ruhu da incimədi.*

Mir Cəlal.

//Bu cür ailədəki arvadlardan hər biri. Günülərin davası.

–[Nazlı:] *Təzə arvad günüsündən hər gün ərinə bir söz deyir, əri də yazıq arvada sitəm eləyirmiş.*

Çəmənzəminli.

*Cırmaqlama, didişmə olur, günülərin birisi digərinin xınalı saçlarını çəngə-çəngə yolurdu.*

*S. Rəhimov.*

*2. məc. Düşmən, rəqib mənasında.*

*Ancaq o çox sadədir; tərifi-zadı sevməz;*
*Elə bil ki, şöhrətlə; qanlıbıçaq, günüdür.*

R. Rza.

**GÜNÜLƏMƏK** *f.* Düşmən olmaq, xoşlamamaq, günü kimi baxmaq, yola getməmək.

*Ayna Əbülfəzi günülədiyi kimi, Əbülfəz də onu xoşlamırdı.*

Ə. Vəliyev

**GÜNÜLÜK** *is.* 1. Köhnə məişətdə: bir kişinin iki və ya bir neçə arvadı arasındakı münasibət.

[Fərəc] *iki arvad almışdı ki, onlardan biri günülüyə davam etməyib, ikinci arvadı alandan sonra o dünyaya köçmüşdü.*

Ə. Haqverdiyev.

2. Özünü günü kimi aparma; yola getməmə.

[Gülbadam] *zəif, naxoş arvada nəinki günülük etməzdi, hətta bir az da hörmət edərdi.*

N. Nərimanov.

**GÜNYAŞAR** *sif.* 1. *zool.* Ancaq bir gün ömrü olan, bir gün yaşayan (cücü haqqında).

2. *məc.* Efemer.

**GÜNYƏ** *is.* Düzbucaqlı və ya şaquli xətlər çəkmək üçün üçbucaq formalı xətkeş.

**GÜRCÜ** *is.* Gürcüstanın əsas yerli əhalisini təşkil edən, iber-Qafqaz dillərindən birində danışan xalq və bu xalqa mənsub adam.

**GÜRDƏK** *is. məh.* 1. Taxtadan, kağızdan və ya başqa bir şeydən qayrılmış qapaq, tıxac.

2. Yaranın içinə qoyulan pambıq, ya bint parçası; piltə, tampon.

**GÜRRAH** *is.* Dəstə ilə çox adamın səsküylə birlikdə və birdən-birə bir işə başlaması.

// Qələbəlik, axın, bir şeyin qızğın çağı. *Sabah ertə alan çoxlu olur, ancaq axşamüstü bazara ləngiyənlər, alıcının gürrahına düşməyənlər ucuz satırlar.*

S. Rəhimov.

**Gürrah vurmaq (çəkmək)** – səsküylə, qışqırıqla, birdən-birə bir işə başlamaq, yaxud yüyürüşmək, axışmaq, hücum etmək. *Uşaqlar gürrah çəkdilər.*

**GÜRŞAD** *is.* İri giləli bərk yağış.

*Belə gürşad yağmurlar üçün babalar deyiblər ki, yağış yağar, varlının süsünü aparar, yoxsulun hisini.*

M. Rzaquluzadə.

**GÜRUH** *is. [fars.]* Qeyri-mütəşəkkil, şüursuz, cahil adamlar yığını, yaxud pis bir niyyətlə birləşmiş adamlar dəstəsi.

*Bəzən yaxşını pisdən, qaranı ağdan seçə bilməyən güruhun nə qədər dəhşətli olduğunu Tərlan çox gözəl bilirdi.*

M. Hüseyn.

//*klas.* Ümumiyyətlə, dəstə.

**GÜRZ** *is.* 1. Müxtəlif işlərdə işlədilən çox ağır, iri çəkic.

*Qollarını çırmayıb, gürz endirir zindana.*

Ə. Cəmil.

2. Qədimdə: başı dəmir və ya daşdan olan toppuz; silah kimi işlədilən, baş tərəfi enli, ağır dəyənək.

*Dəmirçioğlu getdi, qılınc, qalxan, cida, gürz götürdü, Koroğlunun yanına qayıtdı.*

"Koroğlu".

**GÜRZƏ**[1] *is.* Daşlıq, qayalıq, kolluq yerlərdə yaşayan boz rəngli, arxasında əyri parlaq zolaqlar olan zəhərli ilan.

**GÜRZƏ**[2] is. Nazik yayılıb doğranmış xəmir parçalarının içinə döyülmüş ət qoyulub bükülərək bişirilən xörək; girs.

**GÜŞBƏRƏ** bax **düşbərə.**

*...Gəldi evə, arvad güşbərə bişirmişdi, bir neçə boşqab yeyib istədi yatsın, yuxusu gəlmədi.*

Ə. Haqverdiyev.

**GÜVƏ** *is. zool.* Yun şeylərə, taxıla və s. bitkilərə zərər vuran bir böcək cinsi. *Güvə dəymək (düşmək).*

*–Kiçik və ipək xalçalar bükülüb güvə dəyməmək üçün tütünə qoyulmuşdu.*

M. S. Ordubadi.

**GÜVƏC** *is.* Gildən qayrılan (bəzən içində xörək bişirilən) boğazı dar qab. *Güvəcdə qatıq qoymaq.*

*Adımı güvəc qoy, amma ocaq üstə qoyma.*

( Ata. sözü ).

Arvad sevincindən özünü itirdi və əlindəki güvəci salıb sındırdı.

Q. İlkin.

**Güvəc yumbalanıb qapağını tapar –** hər kəs axırda öz tayı ilə rastlaşar, öz tayını tapar.

**GÜVƏQIRAN** *is. dan.* Naftalin.

**GÜVƏNC** *is.* Arxalanmalı, etibar olunmalı, güvəniləsi adam və ya şey.

**GÜVƏNMƏK** *f.* 1. Arxalanmaq, bel bağlamaq. *Atasına güvənmək.*

*Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış.*

( Ata. sözü ).

2. Lovğalanmaq, öyünmək, qürrələnmək, boş yerə fəxr etmək.

*İncə xanım çox güvənir özündəki gözəlliyə.*

S. Vurğun.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**ქარის ჩარშანბა (Karis Çarşanba) – Külək (yel) Çərşənbəsi**

**ქარის ჩარშანბა ნოვრუზამდე 4 ჩარშანბებიდან მესამეა (Karis çarşanba novruzamde 4 çarşanbebidan mesamea) – Külək Çərşənbəsi Novruz bayramından əvvəlki dörd çərşənbədən üçüncüsüdür.**

**ხალხში მას "ქარის ჩარშანბა" ან "ქარიანი ჩარშანბა" ეწოდება (Xalxşi mas "karis çarşanba" an "kariani çarşanba" etsodeba) – Xalq arasında ona "Külək (yel) Çərşənbəsi" və ya "Yelli Çərşənbə" deyilir.**

**ეს დღე ქარის გაღვიძებას, ჰაერის დათბობას და გაზაფხულის მოახლოებას უკავშირდება (Es dğe karis qağvidzebas, haeriz datbobas da qazapxulis moaxloebas ukavşirdeba) – Bu gün küləyin oyanması, havanın isinməsi və baharın yaxınlaşması ilə bağlıdır.**

**წარმოდგენების მიხედვით, ქარის ჩარშანბაზე ქარი მიწას აღვიძებს, წყალს ამოძრავებს და ცეცხლს აძლიერებს (Tsarmodqenebis mixedvit, karis çarşanbaze kari mitsas ağvidzebs, tsğals amodzravebs da tsetsxls adzlierebs) – İnanclara görə, Külək Çərşənbəsində külək torpağı oyadır, suyu hərəkətə gətirir və odu gücləndirir.**

**ხალხური თქმულება ამბობს: "ქარის წაღებული წყალი აღარ ბრუნდება, ქარით გაშლილი ყვავილი არ ჭკნება" (Xalxuri tkmuleba ambobs: "karis tsğebuli tsğali ağar brundeba, karit qaşlili ğvavili ar tçkneba") – Xalq arasında belə bir deyim var: "Yel aparan su geri gəlməz, yel oynadan çiçək solmaz".**

**ქარი ზამთრის სიცივეს მიაქანებს და გაზაფხულის სითბოს მოაქვს (Kari zamtriz sitsives miakanebs da qazapxulis sitbos moakvs) – Külək qışın soyuğunu uzaqlaşdırır və baharın istiliyini gətirir.**

**ამ დღეს ხალხი კოცონს ანთებს და სჯერათ, რომ ქარი ბოროტ ძალებს განდევნის (Am dğes xalxi kotsons anteps da scerat, rom kari borot dzalebs qandevnis) – Bu gün insanlar tonqal qalayır və küləyin pis qüvvələri uzaqlaşdıracağına inanırlar.**

**არსებობს ტრადიცია, რომ სურვილი ქარს უნდა ჩასჩურჩულო, რათა ახდეს (Arsebobs traditsia, rom survili kars unda çaşçurçulo, rata axdes) – Bir ənənəyə görə, küləyə pıçıldanan arzuların gerçəkləşəcəyinə inanılır.**

**მისი აღნიშვნა გაზაფხულის საბოლოოო გაღვიძებას ასახავს (Misi ağnişvna qazapxulis sanapiro qağvidzebas asaxavs) – Onun qeyd edilməsi baharın tam oyanışını simvolizə edir.**

**ქარი მიწაზე სიცოცხლეს აბრუნებს, ხოლო ადამიანებს ახლის მოლოდინს ჩუქნის (Kari mitsaze sitsotsxles abrunebs, xolo adamianebs axlis molodins çuknis) – Külək torpağa yenidən həyat verir və insanlara yeni ümidlər bəxş edir.**

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

3 mart 2025-ci il "SAKARTVELOS RESPUBLİKA"

## İdman naziri gənc qadınlardan ibarət oxatma komandasını uğurları münasibətilə təbrik edib

Gürcüstanın idman naziri Şalva Qoqoladze Gürcüstanın gənc qadınlardan ibarət oxatma komandasını Avropa çempionatında qazandıqları tarixi uğur münasibətilə təbrik edib.

İdman Nazirliyindən verilən məlumata görə, görüşdə Gürcüstanda oxatma idmanının inkişafı müzakirə olunub.

Nazir idmançılara dəstəyini bildirərək, gələcək yarışlarda qələbələr arzulayıb.

İclasda nazirin birinci müavini İrakli Medzmariaşvili, federasiya prezidenti Simon Nozadze, eləcə də milli komandanın məşqçiləri iştirak ediblər.

Türkiyədə keçirilən oxatma üzrə Avropa çempionatında Qvantsa Arçvadze, Nia Qatenadze və Ana Bolokadzedən ibarət 21 yaşadək idmançılar kateqoriyasına aid Gürcüstanın gənc qadınlar komandası 18 metrlik məsafədən oxatma üzrə bürünc medal qazanıb. Bu, komanda-nın qitə birinciliyi uğrunda qazandığı ilk medaldır. Gürcü oxatanlar Avropa çempionatında Gürcüstan İdman Nazirliyinin dəstəyi ilə iştirak ediblər.

Uğurlarını qeyd etmək üçün idmançılar Gürcüstan İdman Muzeyinə hədiyyə olunacaq milli komandanın formasına imza atıblar.

## Şalva Papuaşvili Rusiya -Ukrayna müharibəsi haqqında

*(İxtisarla)*

***"Sakartvelos respublika"*** qəzetinin 31-ci sayında "Şalva Papuaşvili: "Daha yaxşıdır müharibə Amerikanın iştirakı ilə qurtarsın ki, Ukraynanı qorusun" – başlıqlı məqalə dərc olunub. Həmin məqalədə Gürcüstan Parlamentinin sədri Rusiya - Ukrayna müharibəsinin dünya və regiona olan təsirinə toxunaraq yazıb: "...24 fevral 2022-ci ildə müharibə sadəcə Ukraynada yox, ən azı bütün reqionda başlayıb. Bu müharibənin konteksti bizə də yayılır..."

Şalva Papuaşvili Gürcüstan hökümətinin əsas məqsədinin gedən müharibənin ölkəyə yayılmasının qarşısını almaq olduğunu qeyd edərək yazıb: "...Gürcüstan, heç bir halda gedən isti və ya hibrid müharibənin iştirakçısı olmamalıdır və biz hər nəyin bahasına olursa-olsun, sülhü qoruyub saxlamalıyıq".

Eyni zamanda, Gürcüstanın rus işğalını tənqid etdiyini, sülhə çağırdığını və Ukraynanı dəstəklədiyini də bildirib. O xatırladıb ki, Gürcüstan qaçqınları qəbul edib, humanitar yardım göstərib. Gürcüstan elçiliyi Kiyevdə qalan yeganə xarici diplomatik missiya olub. ".... Biz sanksiyalar tətbiq etmədik (lakin heç kimə beynəlxalq sanksiyalardan yan keçmək imkanı verməmişik), cəbhəyə könüllü döyüşçülər göndərmədik və ritorikanı şiddətləndirmədik. Ağ Evdə müşahidə etdiyimiz kimi, ritorika mühüm olub. Müharibədən 3 il sonra avropalı liderlərin göstərdikləri kiçik yardımla Ukraynanın Rusiyanı necə məğlub etməsi barədə planları yoxdur. Nə ehtiyat, nə vaxt nə qədər də insan həyatı lazım olacaq ki, müharibədə qələbə əldə edilsin? Bu sual cavabsızdır. Sadəcə yardımın davam etdirilməsini eşidirik.

Papuaşvilinin qeydinə görə, ölkələrin öz maraqları var və bu maraqlar əsasında fəaliyyət göstərirlər. O yazıb: "Bu müharibənin əsas oyunçusu Amerika Birləşmiş Ştatlarıdır. Yeni administrasiya müharibəni bitirmə vədiylə xalqın mandatını əldə edib. Daha yaxşıdır ki, bu müharibə Amerikanın iştirakı ilə qurtarsın, nəinki Amerikasız, çünki o Ukraynanı qoruyacaq. Əgər ABŞ bu prosesdən çıxsa, Avropa və Ukrayna Rusiya ilə tək üzbəüz qalacaqlar. Dünya siyasəti belədir. Belə hadisələr əvvəlcə də baş verib və bir çox dəfə də olacaq. Ölkələrin öz maraqları var və onlara uyğun olaraq hərəkət edirlər...."

Həmin məqalədə Şalva Papuaşvili ölkə müxalifətini tənqid edərək, yazıb: "...Müharibə başlayandan 3 il sonra, Ağ Evdə çətin ABŞ-Ukrayna görüşü fonunda Gürcüstan hökumətinin uzaqgörən və ağlabatan siyasətini tanımaq və ya ən azından susmaq əvəzinə, cəmiyyətimiz bir daha radikal müxalifətin, xaricdən maliyyələşən QHT-lərin, Gürcüstanın eks-prezidentinin yüksəlişinin şahidi oldu..."

4 mart 2025-ci il "REZONANS"

## Donald Tramp: "Volodimer Zelenski nə qədər ki, Amerika tərəfindən dəstəklənəcək, sülh istəməyəcək"

ABŞ prezidenti Donald Tramp sosial şəbəkədə yazır ki, Ukrayna prezidenti sülh istəmir. "True Social"-da Tramp Volodimer Zelenskinin müharibənin sonunun hələ çox uzaqda olduğunu söylədiyi bəyanatı paylaşıb. "Bu, Zelenskinin verə biləcəyi dəhşətli bəyanatdır və Amerika buna daha çox dözməyəcək. Bu mənim dediyimdir ki, nə qədər ki, arxasında Amerika Birləşmiş Ştatlarının dəstəyi var, bu adam sülh istəməyəcək. Avropa Zelenski ilə görüşündə birbaşa bildirib ki, ABŞ olmadan bu işi görə bilməzlər. Yəqin ki, Rusiyaya qarşı güc nümayiş etdirmək baxımından yaxşı bəyanat deyil. Onlar nə düşünürlər?" – deyə Donald Tramp sosial şəbəkədə yazır.

21-27 fevral 2025-ci il "VEÇERNİY TBİLİSİ"

## Hərbi qulluqçular üçün yeni qaydalar

Hərbi qulluqçular və Gürcüstan Müdafiə Qüvvələrinin əməkdaşları fasilə və məzuniyyət hüququnu əhatə edən ciddi qrafik əsasında işləyəcəklər. Müvafiq əmri Gürcüstanın müdafiə naziri İrakli Çikovani imzalayıb.

"Gürcüstan Müdafiə Qüvvələrinin daxili nizamnamələri haqqında" əmrə əsasən, hərbi qulluqçulara və müdafiə işçilərinə 8 saatlıq iş günü və adi günlərdə bir saatlıq fasilə hüququ verilib. Eləcə də, 14 yaşınadək uşağı olan hərbi qulluqçuların iş günü saat 9:00-da başladıqda işə yarım saat, iş günü saat 08:00-da başladıqda isə bir saat yarım gecikmək hüququ vardır.

Onlar həmçinin beşgünlük iş həftəsinə tabe olacaqlar və hərbi qulluqçular və Müdafiə Nazirliyinin əməkdaşları qeyri-iş vaxtlarına yalnız fövqəladə zərurət yarandıqda, hərbi vəziyyət və ya fövqəladə hallar zamanı, təlimlər zamanı, döyüş hazırlığının təmin edilməsi üçün və xidmət zamanı çağırıla bilərlər.

Bundan əlavə, hərbi qulluqçuların yazılı şəkildə xidmətdən məzuniyyət tələb edə və ya məzuniyyətə gedə bilmək hüququ da var. Lakin Gürcüstan sərhədini keçərkən komandanlığa əvvəlcədən məlumat verməlidirlər ki, onun, məlumatı hərbi polisə ötürmə imkanı olsun.

Yeni qaydalar adi və ehtiyatda olan hərbi xidmətə şamil edilir. Çağırışçıların xidmət normaları, habelə onların məzuniyyət və istirahət günləri Müdafiə Məcəlləsinə uyğun şəkildə ayrı sərəncamla tənzimlənir.

4 mart 2025-ci il "AXALİ TAOBA",

## Gürcüstanda çörək bahalanır – qiymətlər nə qədər və nə zamandan qalxır?

Gürcüstanda kütləvi istehsal olunan zavod çörəyi bahalaşır. İstehlakçılar piştaxtalarda çörəyin müəyyən növlərinin qiymətində 10 tetri artım görəcəklər. Söhbət ağ çörəyin üç növündən gedir: 410 – qramlıq baton, 530-qramlıq baton və həmin çəkidə kəsilmiş çörək. Bəzi supermarketlər şəbəkəsi qiymət dəyişiklikləri ilə bağlı artıq məlumatlandırılıb.

"Business Press News"a danışan Riteil Assosiasiyanın İdarə Heyətinin sədri Sopo Kaşakaşvili qeyd edib ki, konkret müəssisələrdə qiymət dəyişikliyi 11-16 faiz daxilindədir. İstehlakçılar martın 5-dən etibarən piştaxtalarda ağ çörəyin bahalaşdığının şahidi olacaqlar.

Bundan əlavə, Gürcüstan Çörək Sahibkarları İttifaqının sədri Malxaz Dolidzenin "Business Press News"a verdiyi məlumata görə, qiymət dəyişikliyinə səbəb dünya bazarlarında buğdanın qiymətinin artması və qablaşdırma materiallarının qiymətinin dəyişməsi ola bilər ki, bu da konkret çörək istehsalçısının qiymətləri tənzimləməsinə səbəb ola bilər. "Həmişə 5-10 tetri diapazonunda qiymət dəyişikliyi olur, bu, qablaşdırma materialları ilə bağlı ola bilər və ya ola bilsin ki, müəyyən bir istehsalçı qiyməti formalaşdırıb. Mən bunu qiymət artımı hesab etmirəm, çünki həqiqətən qiymət artımı yoxdur.

Dünya bazarında tonu 700 lari olan buğda, son vaxtlar 1000 larini keçib ki, həmin halda qiymətlərin tənzimlənməsi baş verir. Bunu bilmənizi istəyirəm, buğdanın qiyməti çox artıb, bilmirəm qıs səbəbilə, ehtiyatlara görə, yoxsa başqa səbəblərlərə görə.

Tənzimləmə iş prosesində baş verir. Koronavirus zamanı qablaşdırma materialları təqdim edildi və bu qablaşdırma materialı bahadır", - deyə Malxaz Dolidze bildirib.

Xatırladaq ki, kütləvi istehsal olunan çörəyin qiymətinin artmasından əvvəl idxal edilən unun vergisinin uzadılması ilə bağlı qərar verilib. Hökumətin qərarına əsasən, unun idxal vergisi martın 1-dən sonra da davam edir, tarif isə artırılır. Əvvəllər xaricdən gətirilən unun bir tonuna görə vergi 250 lari idisə, martın 1-dən 300 lariyə yüksəlib və sözügedən 1 ay müddətində, aprelin 1-dək qüvvədə olacaq.

SAĞLAMLIĞIMIZI QORUYAQ

## YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

### BADAM, BİBƏR, KOKOS SÜDÜ, ÇİY KAKAO, ZƏRDƏÇAL (KURKUMA), DARÇIN

*(Əvvəli ötən sayımızda)*

**Bibər növlərindən:**



**Ətirli bibər (Yamay bibəri)**

Piment (ətirli, Yamay bibəri) Mərkəzi Amerikada və Karib dənizi adalarında bitən mərsinlər fəsiləsindən "Pimenta dioica" tropik ağacının günəşdə qurudulmuş və yetişməmiş qəhvəyi meyvələridir. Yamay pimenti ənənəvi olaraq ən yaxşı hesab olunur. Bu bitki giləmeyvələrə aiddir: əvvəlcə mavi-yaşıl rəngdə olur, quruduqdan sonra isə qara bibərdən iki-üç dəfə böyük olan, tərkibində 4 faizə qədər efir yağı olan kobud qəhvəyi noxud halına düşür. Piment ətirli, mülayim, xoş dada malikdir ki, qara bibər, mixək, muskat və darçın qarışığına bənzəyir. Pimento bitkisinin meyvəsi olan ətirli bibər və Hindistanda yetişən bibər cinsinə aid dırmaşan bitkinin meyvəsi olan qara bibər noxudları arasında fərq qoyulmalıdır. Bundan əlavə, bu ədviyyatların dadı və görünüşü fərqlidir. Qara, qırışmış noxudlar salxım şəklində böyüyür, ətirli bibər isə daha iri və hamar səthə malikdir.

Bu bibər ilk dəfə Avropaya onu hind qara bibəri ilə səhv salan Xristofor Kolumb tərəfindən gətirilib. Nəticədə, üç ədviyyat "bibər" sözü ilə adlandırılmağa başlayıb - qara, qırmızı bibər və ətirli bibər - sonuncuya, dünyanın bir çox dillərində Karib dənizi mənşəli olduğu üçün, "Yamay" adı əlavə olunub. Heyrətamiz dərəcədə çoxcəhətli olmasına baxmayaraq (ətirli bibər həm şirin, həm də şirin olmayan yeməklərdə istifadə edilə bilər), Avropa mətbəxində heç vaxt əhəmiyyətli rol oynamayıb. Yeganə istisna şimal ölkələridir: skandinaviyalılar balıqları ətirli bibərlə marinə edirlər, onu ətlı pastalara əlavə edirlər. Ətirli bibər istehlakı üzrə Avropa rekordçuları hesab olunan ingilislər onu tərəvəzləri marinə edərkən, eləcə də qızartmalara və souslara səxavətlə əlavə edirlər. Bir çox Avropa ölkələrinin bu ədviyyatla ingilislər vasitəsilə tanış olması təəccüblü deyil.

Ətirli bibərin insan orqanizmi üçün faydalı xüsusiyyətləri onun tərkibinə görədir. Tərkibində eugenol, cineole, caryophyllene və phelandrone olan 3,5 – 4 faiz əsas pimento yağı var. Tərkibində qatranlar, taninlər, vitaminlər və kalium, manqan və mis kimi minerallar var ki, bu da sağlam qan dövranını təmin etmək üçün vacibdir. Ətirli bibər noxudundan hazırlanan çay qarın kolikası, meteorizm, ishal və şişkinliyə kömək edir, həmçinin həzmi yaxşılaşdırır. Əzilmiş ətirli bibər noxudu revmatizm və sıxılmış onurğa sinirlərinə kömək edir.

Ətrli bibər bədənə tənzimləyici təsir göstərir və qan dövranını stimullaşdırır. Həmçinin ətirli bibərin istifadəsi qanın suyuqlaşmasına kömək edir, trombozun qarşısını alır və təzyiqi aşağı salır.

Ancaq bir sıra əks göstərişləri də var. Fərdi dözümsüzlük hər şeyə, o cümlədən ətirli bibərə qarşı baş verə bilər.

Əgər ciddi mədə-bağırsaq xəstəlikləriniz varsa, bu ədviyyatdan da çəkinməlisiniz. Belə xəstəliklərə mədə və duodenal xoralar, qastrit, kolit və qaraciyər patologiyaları daxildir.

Qanın laxtalanmasından əziyyət çəkən insanlar da ətirli bibərdən imtina etməlidirlər. Hamiləlik və ana südü ilə qidalandırma zamanı bibərə (və ya hər hansı digər ədviyyata) meyl etməməlisiniz.

XATİRƏ

# ƏMİNƏ MÜƏLLİMİN XATİRƏSİNƏ EHTİRAMLA



Müəllim bizim hər birimizin ailədən sonra həyatında ən önəmli rol oynayan şəxsiyyətdir. Şagirdlərinə bilik və bacarığını verən, ona sevməyi öyrədən insandır müəllim. O şagirdlərinə yaxınlarını, təbiəti, bəşəriyyəti sevməyi öyrədib böyük həyata hazırlayır. Müəllim olmaq yaradıcı olmaq, zəngin daxili dünyası olmaq, ruhu və könülü ilə uşaqlara bağlı olmaq, onları sevməkdir. Müəllim nəinki öz fənnini tədris edir eyni zamanda ona vətəndaş olmaq dəyərlərini aşılayır. Öz fədakarlıqları, səbr və sevgisi ilə şagirdlərinə bir ruh zənginliyi bəxş edərək onları uğura ruhlandıran insandır müəllim. Bizə özünə inamı yaradan, yaxşı oxumağa, uğur qazanmağa ruhlandıran məhz müəllimlərimizdir. Bizim hər birimizin yaddaşında ən çox iz qoyan isə ibtidai sinif müəllimidir. Fikrimcə şagird üçün sevimli müəlliminin olması böyük xoşbəxtlikdir. Mən də özümü çox şanslı hesab edirəm. İlk müəllimim Əminə Bəxtiyarova olduğu üçün. O, 1938-ci ildə Bolnisi bələdiyyəsinin Qoşakilsə kəndində anadan olub. Çoxuşaqlı ailədə doğulub böyümüş Əminə müəllim məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək istəyib. Onun ən böyük arzusu müəllim olmaq idi. Bu arzu onu Pedaqoji İnstituta gətirib çıxarır. Ali təhsilini bitirdikdən sonra ailə quran Əminə müəllim Bolnisi bələdiyyəsinin Həsənxocalı kəndində yaşamağa başlayır. Müəllimlik fəaliyyətinə (Xidisğuri) Həsənxocalı natamam orta məktəbində başlayan Əminə müəllim ömrünün sonuna qədər orda çalışır. Məktəbə qədəm qoyduğum ilk gündən başlayan uzun yolda ilk bələdçim oldu Əminə müəllim. Çox mehriban, mülayim və səbirli olması onu çox sevdirdi bizə. Onunla ilk tanışlığım məktəbə getdiyim gün başladı. O gündən başlayan və 4 il çəkən bir yola başladıq Əminə müəllimlə. Son dərəcə mülayim, mehriban insan idi. Onunla başladığım məktəb həyatında ilk addımlarımızı atmağa başladıq. Onun fədakarlığı, sevgisi və səbri nəticəsində bilik dünyasına daxil olub ilk uğurlarımıza imza ataraq sevinc hissləri yaşadıq. Bütün çətinliklərdə ona ümidlə baxdıqda həmişə bizim yanımızda oldu və ruhlandırdı. Məktəbdə onunla keçirdiyimiz vaxt zamanla bizi qane etmirdi. Həftə sonları sizə gəlmək istəyirik deyirdik. Cavab isə həmişə müsbət olurdu. Onun böyük meyvə bağı var idi. Bizə bütün meyvələrdən yığıb çay süfrəsi düzəldərdi. Onunla keçirdiyimiz vaxt ən xoş vaxt olardı. Nəinki müəllim, eləcə də ana, böyük ailə xanımı kimi çox sevimli idi Əminə müəllim. Həddindən çox əməksevər, çalışqan, fədakar ana idi. Övladları onun böyük zəhmət və fədakarlığı sayəsində həyatda öz layiqli yerlərini tutublar. Onun müəllimlik yolunu layiqincə davam etdirib onun qədər sevilən Nəzakət Məmmədəlizadə, Məlahət Məmmədəlizadə və Alidə Məmmədəlizadə onun arzularını doğruldan və cəmiyyətmizdə sevilən insanlardır. Ona ən çox bənzəyən isə kiçik qızı Alidə müəllimdir. O, mənə Əminə müəllimi xatırladan onun qədər gözəl insandır. Xidisğuri məktəbinin ən sevilən və seçilən müəllimlərindən olan Alidə müəllim pedaqoji fəaliyyətində anası mərhum Əminə müəllimin qoyub getdiyi dəyərlərin daşıyıcısıdır. Çoxşaxəli əmək fəaliyyəti olan Alidə müəllim uzun illərdir gürcü dili fənnini tədris edir. Xidisğuri məktəbi ilə yanaşı Qafqaz Hüquq və İnteqrasiya Mərkəzində də gürcü dilini böyük sevgi və məsuliyyətlə gənc nəslə öyrədir. Ömrünü şagirdlərinə, onların inkişafına və tərbiyəsinə həsr etmiş Əminə müəlliimin adı həmişə böyük hörmət və ehtiramla anılır. O mənim yaddaşımda, xatirələrimdə əbədi iz qoyub. Yüzlərlə gəncin yetişməsində, cəmiyyətə və xalqına faydalı şəxsiyyətlər olması üçün ömrünü, biliyini, sevgisini fəda edən bütün müəllimlər dərin hörmət və sevgiyə layiqdirlər. Mən də ziyalı ailəsində doğulub böyümüş bir insan kimi, müəllim əməyinin ağırlığını və məsuliyyətini yaxından görmüşəm. Cəmiyyətimiz üçün əvəzsiz xidmətləri olan, ömrünü gənc nəslin inkişafı, təhsili və tərbiyəsinə həsr etmiş dəyərli müəllimlərmiz qarşısında hər birimiz borcluyuq. Çox uzun vaxt keçməsinə baxmayaraq, hələ də qəlbimdə əziz yeri olan bütün müəllimlərimə çox sağ olun, əziz müəllimlərim deyirəm.



**Leyla Nəbiyeva – Yusifova**

Mənəviyyat

# AYLARIN SULTANI - MÜBARƏK RAMAZAN AYI

Mübarək Ramazan ayının günlərini yaşıyırıq. Bütün dünyadakı müsəlman ölkələri kimi bizim ölkəmizdə də, müsəlmanlar mübarək Ramazan ayında oruc tutur, kasıblara yardımlar edir, iftar süfrələrində bir araya gəlirlər. Məscidlər ibadət edənlərlə dolur, bu ayın mənəvi ab-havasını istər fərdi, istər cəm halda yaşamağa çalışırlar. Bu mövzu ilə əlaqədar qəzetimizin Baş redaktoru Xaləddin Yolçuyev Gürcüstan Müsəlmanları İdarəsinin Şeyxi Hacı Faiq Nəbiyevə müraciət edərək suallara online müsahibə verməsini xahiş edib.

***Hacı sizləri mübarək Ramazan ayı ərəfəsində salamlayırıq. Xahiş edirik bir neçə suallarımızı cavablandırasınız.***

***Mübarək Ramazan ayının müsəlmanlar üçün əhəmiyyətini qısa olaraq anlatmanızı xahiş edirik:***

—Ramazan ayı İslam dinində ən müqəddəs aylardan biridir. Bu ayda Quran nazil olmuş, müsəlmanlara oruc tutmaq vacib buyurulmuşdur. Ramazan insanları səbirli, mərhəmətli və xeyirxah olmağa çağırır. Bu ay həm də günahlardan təmizlənmək və Allahın rəhmətinə nail olmaq üçün bir fürsətdir.

***Hacı niyyət axşamı deyirlər, ümumiyyətlə Mübarək ayın birinci günü nə vaxtdır?***

—Bu ayın görsənməsinə bağlıdır. Yəni Şaban ayının sonunda ay görünərsə, Ramazanın birinci günüdür. Əgər görünməsə, Şaban ayının 30-cu günüdür, ondan sonrakı gün Mübarək Ramazanın birinci günü olacaqdır. Bu şəriət məsələsidir, bu barədə səhih hədislər var. Təbii ki, ayın görünməsini izləyən bu məsələ ilə bağlı məşğul olan rəsədxanalar var, onların açıqlamalarına əsasən və ya öz gözümüzlə ayı görəriksə, o axşamı niyyət axşamı edəcəyik.

***Ramazan ayında oruc tutmağın əsas məqsədi haqda nə deyə bilərsiniz?***

— Oruc yalnız yemək və içməkdən imtina etmək deyil, eyni zamanda nəfsin tərbiyə olunması, səbrin artırılması və Allaha daha yaxın olmağın bir yol xəritəsidir. Orucluq insanın həm fiziki, həm də mənəvi cəhətdən saflaşması üçün ən gözəl vasitədir.

***Ramazan ayında hansı əməlləri etməliyik?***

— Ramazan ayı Quranın nazil olduğu ay olduğu üçün müsəlmanlar bu dövrdə daha çox ibadət etməyə çalışırlar. Xüsusilə, Qurani-Kərimi oxumaq, namaz qılmaq, dua və zikr etmək, həmçinin sədəqə vermək savab əməllərdən sayılır. Bu ayda edilən ibadətlərin savabı qat-qat artıq olur. Hətta oruc halda yatan insana belə savabın verilməsilə bağlı rəvayətlər vardır. Həmçinin bu ayda insan haramlardan çəkinməli, öz əxlaqını düzəltməlidir. Əsəbləşdiyi şeylərə çalışmalıdır ki, əsəbləşməsin. Güləruz olmağa çalışsın, insanlarla davranışında isti münasibət, şirin dilli olsun. Bir sözlə, bu ayda həm Allahın ibadətlərini etsin, həm də cəmiyyətdə xoş əxlaq olsun. Çox zamanlar olub ki, bu ayda xoş əxlaqa əməl edənlər sonradan bu cür də qalıblar. Yəni bu ayda insan insanları narahat edən davranışlarından imtina edərsə, Allahın izni̇lə bu narahatedici sifətlər ondan xilas olar. Cəmiyyətin bəlası qeybətdən uzaq durmalıyıq. Xüsusilə bu gözəl ayda bu böyük günahdan çəkinməliyik. Bir sözlə, insanın orucunun dəyəri onun günahdan nə qədər uzaq olması, bundan sonra ibadətləri qədərdir.

***Ramazan ayının sosial birlik və yardımlaşma baxımından rolu nədir?***

—Ramazan ayı insanların birlik və bərabərlik hissini gücləndirir. Ailələr iftar süfrələrində bir araya gəlir, qonşular və ehtiyacı olan insanlar arasında yardımlaşma artır. Xeyriyyəçilik, sədəqə və yardım verməklə imkansızlara kömək olunur. Bu ay həm də cəmiyyətin daha mərhəmətli və şəfqətli olmasına töhfə verir. Belə olan halda cəmiyyət arasında dostluq, qardaşlıq, mehribançılıq yaranır. Buna isə bütün dünyanın ehtiyacı vardır.

***Hacı, orucu nə batil edir, yəni pozur?***

—Səkkiz şey orucu batil edir. Yemək və içmək, oruc halında cinsi əlaqə, İstimna olmasına səbəb olan bir iş görməyi. Allahın, Peyğəmbərin və məsumların adından yalan danışmaq. Qatı tozu udmaq. Sübh azanına kimi cənabət (qüsl), heyz (aybaşı) və nifas (namaz qılmaq, oruc tutmaq, Quran oxumaq və Qurana toxunmaq olmaz) halında qalmaq, yəni bunların qüslnü etməmək. Axıcı şeylərlə imalə etmək. Qəsdən qusmaq.

***Hacı siz bu ayda müsəlmanlara nə tövsiyə edərdiniz?***

—Qəlbimizdə kin, nifrət və düşmənçilik saxlamamaq üçün bir-birimizlə halallaşmalıyıq. Kiməsə qarşı haqsızlıq etmişiksə, halallıq alaq. İmkanı olanlar kasıblara, ehtiyacı olanlara əl tutsun, kasıbları iftara dəvət etsin, onları gizli və ya aşkar ərzaqlarla təmin etsin. Dilimizi, gözümüzü, qulağımızı və qəlbimizi günahlardan qoruyaq. Yalan danışmaq, qeybət etmək, insanları incitmək kimi hallardan uzaq durmalıyıq. Namazları diqqətlə qılmaq, Qurani-Kərimi oxumaq, dua və zikr etmək, xüsusilə də Qədr gecələrini layiqincə dəyərləndirmək çox önəmlidir. Dünyadakı məzlumları, zəifləri, haqları əlindən alınanların nicat tapması üçün Allaha dua edək. Ölkələrimiz, bütün dünya üçün sülh, əmin-amanlıq, rifah və iqtisadiyyatının yaxşılaşmasını Mütəal Allahdan istəyək. İnsanın xoşbəxtliyinin açarı olan valideynlərinə daha gözəl davranaq, onları bu ayda razı salaq, onlara qarşı səbirli olaq, əlimizdən gəldiyi qədər qulluqlarında duraq. Rəhmətə gedənlər üçün Quran oxuyaq, savab işlər hədiyyə edək. Onları qəbiristanlıqda ziyarət edək. Həmçinin qohumları yad edək, kasıb qohumlara əl tutaq. Bir sözlə, bu ayda istər fərdi, istər qohumlar, istər cəmiyyət üçün əlimizdən gəldiyi qədər yaxşı işlər görməliyik və bu əməllər mübarək aydan sonra davam edilərsə insan kamillik zirvəsinə yüksələr, Allahın sevimli bəndələrinin siyahısına daxil ola bilər. Allah bütün ibadət itaətlərinizi qəbul etsin.

***Hacı, müsahibəyə görə təşəkkür edirik***

—Mən sizə minnətdarlığımı bildirirəm. Allah-Təala sizdən razı olsun və Redaksiya heyətinizə uğurlar arzu edirəm.

# "NOVELLA" BƏDİİ-SƏNƏDLİ FİLMİNİN QALA GECƏSİ BAŞ TUTUB

Marneuli Mədəniyyət Evində "Aktual Media" tərəfindən hazırlanan "Novella" bədii-sənədli filminin qala gecəsi baş tutub. Təqdimatda Gürcüstan və Azərbaycanın rəsmi şəxsləri, iş adamları, elm və incəsənət nümayəndələri, jurnalistlər və gənclər iştirak ediblər.

Qala - gecədə Marneuli meri Kənan Ömərov, Azərbaycan Respublikasının Gürcüstandakı səfirinin müşaviri Kamal Xəlilov, Gürcüstan Universitetinin rektoru Konstantin Topuria, Türkiyə Maarif Məktəblərinin Marneuli şöbəsinin rəhbəri Murat Kordemir, İnkişaf və Təhsil Mərkəzinin rəhbəri Emin Əhmədov, eləcə də "SOCAR Georgia"nın nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbirin ev sahibi, "Aktual Media"nın təsisçisi və Aktual.ge xəbər portalının direktoru, filmin ideya müəllifi və baş prodüseri İlkin Hüseynov çıxış edərək, Gürcüstanda azərbaycanlılar haqqında yayılan qeyri-dəqiq məlumatların onların imicinə mənfi təsir etdiyini vurğulayıb. O bildirib ki, *"Novella" filmi azərbaycanlı gənclərin uğurlarını geniş ictimaiyyətə çatdırmaq və mövcud stereotipləri dağıtmaq məqsədilə çəkilib:*



*"Əsas məqsəd azərbaycanlıların Gürcüstanda müxtəlif sahələrdə əldə etdikləri uğurları nümayiş etdirməkdir. Filmin ərsəyə gəlməsində dəstək göstərən Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinə və iş adamlarına təşəkkür edirik."* O, eyni zamanda "Novella 2" filminin də çəkiləcəyini açıqlayıb.

Marneuli meri Kənan Ömərov çıxışında istedadlı gənclərin tanıdılmasının və onların bu kimi nüfuzlu layihələrdə iştirakının vacibliyini vurğulayıb.

Azərbaycan Respublikasının Gürcüstandakı səfirinin müşaviri Kamal Xəlilov isə "Aktual Media" komandasına təşəkkür edərək bildirib ki, *"Gürcüstanda yaşayan azərbaycanlılarla bağlı xoşagəlməz stereotiplərin formalaşmasının qarşısını almaq üçün bu kimi layihələrin həyata keçirilməsi vacibdir."*

Filmin ssenari müəllifi və montaj rejissoru Elnur Vəlizadə filmin detalları haqqında məlumat verib. "Novella" filmi Gürcüstanda yaşayan azərbaycanlı gənclərin həyat hekayələrini əks etdirir. Burada hüquqşünas və vəkil Edda Qocayeva, Pineo klinikasının kardiologiya şöbəsinin rəhbəri Linda Mustafayeva, pianoçu və beynəlxalq festivallar laureatı Şaban Məmmədov, rəssam Emilya Hüseynova, ingilis dili müəllimi Samirə İsmayılova və stomatoloq Məmməd Muradov kimi uğurlu gənclərin həyat yoluna işıq salınıb.

"Azərbaycanlı gənclərin gürcü dilini öyrənməsi nəticəsində onlar Gürcüstan cəmiyyətində müxtəlif sahələrdə iş tapırlar. İkili təhsil proqramı artıq başlayıb və bu, gələcəkdə daha yaxşı nəticələr verəcək."

Tədbir çərçivəsində filmin qəhrəmanları mükafatlandırılıb. Həmçinin filmin ərsəyə gəlməsinə dəstək göstərən iş adamlarına "Aktual Media" tərəfindən təltifnamələr təqdim olunub.

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**7 mart**

•1876— Amerikalı mühəndis Qreyam Bell telefonu patentləşdirib.
•1972—**Arsen Mekokişvili, gürcü idmançı, güləşçi, SSRİ-nin əməkdar idman ustası (1951). Dünya çempionu, sərbəst güləş üzrə doqquz qat SSRİ çempionu, sambo üzrə yeddiqat çempion, vəfat edib.**
•1989—İran və Böyük Britaniya Salman Rüşdinin qalmaqallı romanı ilə bağlı fikir ayrılıqlarına görə diplomatik əlaqələri kəsib.
•1996—Fələstin parlamentinə ilk demokratik seçkilər keçirilib.
•Albaniya — Müəllimlər Günü

**8 mart**

•1819 — “Sakartvelo” qəzeti təsis edilib.
•1895 — Kolau Nadiradze, gürcü şairi, anadan olub.
•1911— Beynəlxalq Qadınlar Günü ilk dəfə qeyd olunub.
•1942—Xose Raul Kapablanka, Kuba şahmatçısı, vəfat edib.
•1950 — SSRİ atom bombası yaratdığını elan edib.
•1963—Suriyada Bəəs partiyası dövlət çevrilişi ilə hakimiyyətə gəlib.
•Birləşmiş Millətlər Təşkilatı—Beynəlxalq Qadınlar Günü
•Suriya — İnqilab Günü (1963).

**9 mart**

•1701—Səfəvi qoşunları üç illik işğala son qoyaraq, Bəsrədən geri çəkiliblər.
•1932—Rezo Kakabadze, gürcü rəssamı, müəllim, anadan olub.
•1945—İkinci Dünya Müharibəsi: Amerikanın B-29 bombardmançıları Tokioya yandırıcı bombalar atdılar. Bombanın səbəb olduğu yanğında 100 mindən çox insan həlak olub.
•2015 — Otar Koberidze, gürcü aktyoru, rejissoru və ssenaristi, vəfat edib.

**10 mart**

•1801— Əhalinin ilk siyahıya alınması İngiltərədə aparılıb.
•1861 — Taras Şevçenko, Ukrayna şairi, vəfat edib.
•1910— Çində köləlik qadağan edilib.
•1920—Azərbaycan Qızıl Aypara Cəmiyyəti generalleytenant Əliağa Şıxlinskinin və Fətəli Xan Xoyskinin təşəbbüsləri əsasında təsis edilmişdir.
•1922—Hindistan prezidenti Mahatma Qandi Hindistanda həbs edildi, fitnəyə görə mühakimə olundu və altı il həbs cəzasına məhkum edildi, lakin appendisit əməliyyatına görə təxminən iki ildən sonra sərbəst buraxıldı.
•1940—**Canəli Əkbərov, Azərbaycan xanəndəsi, anadan olub.**
•1965 — Mehdi Hüseyn, Azərbaycan yazıçısı, vəfat edib.

**11 mart**

•1835— İlk əskinas Kanadada çap olunub.
•1846—Tekle Batonişvili, gürcü şairi, II Ereklenin qızı, vəfat edib.
•1857— Andria Quladze, gürcü müəllimi, jurnalist, ictimai xadim, anadan olub.
•1938— Almaniya Avstriyanı ilhaq edib.
•1942—Aleksandre Basilaia, gürcü bəstəkar, anadan olub.
•1990 — **Litva Sovet İttifaqından müstəqilliyini elan edib.**
•2006 — Çilinin ilk qadın prezidenti olan Mişel Baçeletin andiçmə mərasimi keçirilib.
•Danimarka — Milli bayram.

**12 mart**

•1226—Səlibçilər Yerusəlimi ələ keçiriblər.
•1918—Sankt-Peterburq 1713-cü ildən paytaxt statusun çox hissəsini saxlamasına baxmayaraq, Moskva yenidən Rusiyanın paytaxtı oldu.
•1919— Nino Orbeliani, gürcü şair, vəfat edib.
•1940—Sovet-Fin müharibəsi başa çatıb.
•1999—Keçmiş Varşava Müqaviləsi Təşkilatının üzvləri olan Çexiya, Macarıstan və Polşa NATO-nun üzvü olub.
•2009—Maliyyəçi Bernard Medoff Uoll - Strit tarixinin ən böyük fırıldaqlarından birində günahını etiraf edib.
• Mavritaniya—Milli Gün

**13 mart**

•1921— Monqolustan Çindən müstəqilliyini elan edib.
•1988—Yaponiyanın Aomori və Hakodate şəhərləri arasında dənizaltı seqmenti ilə dünyanın ən uzun tuneli olan Seykan tuneli açılıb.
•2003—İnsanın təkamülü - İtaliyada 350.000 illik ikiayaqlı insanın ayaq izləri tapılıb.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## ARSEN MEKOKİŞVİLİ



*12 aprel 1912-ci ildə Gürcüstanın Saqareco bölgəsində anadan olub. Onda idmana olan maraq atasından keçmiş və erkən yaşlarından ənənəvi gürcü güləşi olan çidaoba ilə məşğul olmağa başlamışdır.* Fiziki cəhətdən güclü və çevik olması onu tez bir zamanda regionun ən yaxşı güləşçilərindən birinə çevirmişdir.

Mekokişvili 1934-cü ildə Gürcüstan çidaoba çempionatında qalib gəldikdən sonra, 1939-cu ildən etibarən sambo və sərbəst güləş üzrə yarışmağa başlamışdır. O, həm sambo, həm də sərbəst güləş sahəsində Sovet İttifaqının ən güclü idmançılarından biri olmuşdur.

Arsen Mekokişvili 1952-ci ildə Helsinkidə keçirilən Yay Olimpiya Oyunlarında ağır çəkidə qızıl medal qazanaraq olimpiya çempionu olmuşdur. Bu uğuru ilə o, sərbəst güləş tarixində ən yaşlı olimpiya çempionlarından biri kimi yadda qalmışdır.

1954-cü ildə Tokio şəhərində keçirilən dünya çempionatında sərbəst güləş üzrə birinci yeri tutaraq dünya çempionu olmuşdur.

Aktiv idman karyerasını başa vurduqdan sonra, Arsen Mekokişvili Gürcüstanda məşqçi kimi fəaliyyət göstərmişdir. O, öz təcrübəsini gənc idmançılara ötürərək, yeni çempionların yetişməsinə töhfə vermişdir.

Lakin, təəssüf ki, 9 mart 1972-ci ildə Moskva şəhərində baş verən avtomobil qəzası nəticəsində vəfat etmişdir. Onun adı güləş tarixində qızıl hərflərlə yazılmış və o, idman dünyasında əbədi iz qoymuşdur.

Arsen Mekokişvili həm SSRİ-nin, həm də dünyanın ən güclü güləşçilərindən biri olmuşdur. O, həm olimpiya çempionu, həm də dünya çempionu kimi idman tarixində xüsusi yer tutur. Onun idmana verdiyi töhfələr və qazandığı qələbələr Gürcüstan və ümumilikdə güləş dünyası üçün böyük dəyər kəsb edir.

## CANƏLİ ƏKBƏROV



*Azərbaycan xanəndəsi, professor (2008), Azərbaycan Respublikasının xalq artisti (1992).*

Əkbərov Canəli Xanəli oğlu 10 mart 1940-cı ildə Lənkəran rayonunun Tükəvilə kəndində anadan olmuşdur. O, musiqini erkən yaşlarından atasından öyrənmiş və muğamın sirlərini mənimsəmişdir. 1963–1968-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin xanəndəlik şöbəsində təhsil almışdır. Burada o, görkəmli muğam ustadları Seyid Şuşinski və Xan Şuşinskinin tələbəsi olmuşdur.

1965-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının, 1976-cı ildən isə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti kimi fəaliyyət göstərmişdir. Opera səhnəsində “Leyli və Məcnun” operasında Məcnun və İbn - Salam, “Şah İsmayıl” operasında Şah İsmayıl, “Aşıq Qərib” operasında isə Aşıq Qərib kimi rolları ifa etmişdir.

1963–1975-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında işləyən Canəli Əkbərov 1976–2006-cı illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub, opera səhnəsində aparıcı rollarda çıxış edərək çox sayda yaddaqalan obrazlar yaradıb.

Canəli Əkbərov 1992-ci ildən etibarən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyib, uzun illər muğam sənəti kafedrasının müdiri olaraq fəaliyyət göstərib.

Canəli Əkbərov Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük rol oynamış, muğam sənətinin təbliği və gənc nəslə ötürülməsində əvəzsiz xidmətlər göstərmişdir.

Geniş səs diapazonuna malik sənətkar Canəli Əkbərov milli xanəndəlik məktəbinin nailiyyətlərini layiqincə davam etdirib və Azərbaycanın musiqi mədəniyyəti xəzinəsinə töhfələr verib. Sələflərinin yaradıcılıq ənənələrinə sadiqlik və muğamın klassik ifa tərzinin qorunub saxlanması onun altmış ildən artıq müddət ərzindəki fəaliyyətinin başlıca qayəsini təşkil edib. 2021-ci il oktyabrın 22-də, 81 yaşında Bakı şəhərində vəfat etmişdir.

# LİTVA

***Litva (Lietuva) Baltikyanı ölkələrdən biridir və Şərqi Avropada yerləşir. Ölkə Baltik dənizinə çıxışı olan üç Baltikyanı dövlətdən biridir və şimalda Latviya, cənubda Belarus, cənub-qərbdə Polşa, qərbdə isə Rusiya Federasiyasının Kaliningrad vilayəti ilə həmsərhəddir. 2004-cü ildən NATO-nun və Avropa İttifaqının üzvüdür.***



Ümumi ərazisi 65300.0 kvadrat kilometr olan Litva inzibati cəhətdən 6 dairə, 44 rayona bölünür.

Paytaxtı Vilnüsdür. Əhalisi təxminən 2,8 milyon nəfərdir (2024-cü il). Dövlət dili - Litva dili. İdarəetmə forması - Parlamentli respublika. Prezidenti - Gitanas Nauseda.



**Tarix:** Litva zəngin tarixi keçmişə malikdir və XIII əsrdə Böyük Litva Knyazlığı olaraq formalaşmışdır. XIV əsrdə Avropanın ən böyük dövlətlərindən biri olmuş, Belarus, Ukrayna, Polşa və Rusiyanın bəzi hissələrini əhatə etmişdir. 1569-cu ildə Polşa ilə birlikdə Rzeczpospolita adlı konfederasiya qurulmuş, lakin XVIII əsrdə bu birlik Rusiya, Prussiya və Avstriya arasında bölüşdürülmüşdür.

1918-ci ildə Litva müstəqilliyini elan etmiş, lakin 1940-cı ildə Sovet İttifaqı tərəfindən işğal olunmuşdur. 1990-cı ildə Litva Sovet İttifaqından ilk ayrılan respublikalardan biri olmuş və yenidən müstəqillik qazanmışdır.

**Coğrafiya və İqlim:** Litva əsasən düzənlik ərazilərdən ibarətdir və burada meşələr, göllər və çaylar geniş yayılmışdır. O, 53° və 57° şimal enlikləri ilə 21° və 27° şərq uzunluqları arasında yerləşir. Təxminən 99 kilometr qumlu sahil xəttinə malikdir, bunun yalnız 38 kilometri açıq Baltik dənizinə baxır. Bu, digər iki Baltikyanı ölkə ilə müqayisədə ən qısadır. Sahilin qalan hissəsi Curonian qum yarımadası tərəfindən qorunur. Litvanın əsas isti su limanı olan Klaipėda “Curonian Lagoon” un dar ağzında yerləşir. Bu dayaz laquna cənuba doğru Rusiyanın Kaliningrad şəhərinə qədər uzanır. Ölkənin əsas və ən böyük çayı Neman çayı və onun bəzi qolları beynəlxalq daşımalarda istifadə olunur.

Litva Şimali Avropa düzənliyinin kənarında yerləşir. Onun relyefi Son Buz Dövrünün buzlaqları tərəfindən aşınıb və mülayim düzənliklər və yaylaların birləşməsidir. Morenlər ölkənin qərbində yaylalarda, şərqdə isə dağlıq ərazilərdə geniş əraziləri əhatə edir. Onun ən yüksək nöqtəsi ölkənin şərq hissəsində yerləşən 294 metr yüksəklikdəki Aukstojas zirvəsidir (294 m). Ölkədə çoxsaylı göllər (məsələn, Viştitis gölü) və bataqlıq ərazilər var və qarışıq meşə zonası ölkənin 33%-dən çoxunu əhatə edir. Litvanın ən böyük gölü Druksyay, ən dərini Tauraqnas və ən uzunu isə Asvejadır (29,7 km).

**İqtisadiyyat:** Litva inkişaf etmiş bazar iqtisadiyyatına malikdir və Avropa İttifaqının (Aİ) üzvüdür. Əsas sənaye sahələri: Kənd təsərrüfatı – Taxıl, süd məhsulları və ət istehsalı əsas yer tutur.

İT (informasiya texnologiyaları) və texnologiya – Startap ekosistemi sürətlə inkişaf edir.

**Nəqliyyat və logistika** – Litva Baltik dənizi vasitəsilə Avropa və Asiya arasında tranzit mərkəzlərindən biridir.

**Enerji** – Ölkə bərpa olunan enerji mənbələrinə istiqamətlənmişdir.

**Mədəniyyət və Turizm:** Lit-va mədəniyyəti qədim balt tayfalarının ənənələri, xristian dəyərləri və Avropa təsirləri ilə zəngindir. Həmçinin Vilnüs tarixi mərkəzi – UNESCO-nun Dünya irsi siyahısına daxildir. Trakay Qalası – Göllər arasında yerləşən məşhur orta əsr qalasıdır. Kryziu Kalnas (Xaçlar Təpəsi) – Minlərlə xaçın olduğu dini və milli simvol sayılan məkan. Nida və Kurşska Kosa – Qum təpələri və təbiət gözəlliyi ilə tanınan sahil kurortu.




Litva tarixi, mədəniyyəti və iqtisadiyyatı ilə maraqlı bir ölkədir. Aİ və NATO üzvü olması, müasir iqtisadiyyatı və turistik cazibədar yerləri ilə həm səyahətçilər, həm də investorlar üçün cəlbedici məkan sayılır.

GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
" ს ა ქ ა რ თ ვ ე ლ ო "
" S A K A R T V E L O "
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



## "THE HİLL": TRAMP NOBEL SÜLH MÜKAFATINA NAMİZƏD GÖSTƏRİLƏCƏK



***ABŞ Nümayəndələr Palatasının üzvü, respublikaçı Darrel İssa bildirib ki, ABŞ prezidenti Donald Trampı Nobel Sülh Mükafatına namizəd göstərəcək.***

Bu barədə The Hill nəşri konqresmenin X şəbəkəsindəki paylaşımına istinadən yazır.

*"Bu gün Donald Trampı Nobel Sülh Mükafatına namizədliyə irəli sürəcəyəm. Bu mükafata ondan daha çox layiq olan heç kim yoxdur"*, - deyə o qeyd edib.

Konqresmen prezidentin niyə namizəd göstərildiyini dəqiqləşdirməyib. Lakin daha sonra İssanın mətbuat katibi Trampın Yaxın Şərqdəki sülh səylərinə işarə edib.

İssanın aparat rəhbərinin müavini və kommunikasiyalar direktoru Conatan Uilkoksun sözləri: *"Konqresmen İssa yaxınlarda Yaxın Şərqin dörd ölkəsinə səfər edən konqres nümayəndə heyətinə rəhbərlik edib - o, bir neçə dövlət başçısından eşitdi və birbaşa öz gözləri ilə gördü ki, sülh ruhu və münaqişədən imtina real və çoxtərəfli bir prosesdir. Prezident Tramp seçildiyi vaxtdan və andiçmə mərasimindən bəri sülh uğrunda ilhamlandırır və təşviq edir və bunu illərdir eşitmədiyimiz tərzdə edir".*

O əlavə edib ki, Tramp "müharibəsiz sülhə can atmağı" təbliğ edir.

Nəşr vurğulayır ki, bu açıqlama Trampın Ukraynadakı müharibə ilə bağlı ABŞ siyasətini dəyişdirdiyi, Ukrayna lideri Volodimer Zelenskiyə təzyiqi artırdığı və eyni zamanda Rusiya prezidenti Vladimir Putinlə münasibətləri yumşaltdığı bir vaxtda səslənib.

Həmçinin, The Hill xatırladır ki, keçmişdə Tramp dəfələrlə Nobel Sülh Mükafatına namizəd göstərilib, lakin heç vaxt bu mükafatı ala bilməyib.

## TƏBRİK EDİRİK!



***Ramin Əsədov 1978-ci il martın 8-də Marneuli Bələdiyyəsinin Aşağı Saral kəndində anadan olmuşdur. O, 1985-ci ildə Aşağı Saral kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1995 - ci ildə həmin məktəbi uğurla bitirmişdir. 1996 - cı ildə Tbilisi Dövlət Aqrar Universitetinin hüquq fakültəsinə daxil olub, 2000-ci ildə universiteti müvəffəqiyyətlə başa vurmuşdur. On beş ildir ki, gənc nəslin təlim-tərbiyəsi ilə baş müəllim kimi məşğul olur. İki övladı var. Aşağı Saral kənd ictimai məktəbinin pedaqoji kollektivi ad günü münasibətilə onu təbrik edir, cansağlığı və pedaqoji fəaliyyətində uğurlar arzulayır.***

### DÜNYA, SƏNDƏN KİMLƏR KÖÇDÜ...

## MÜƏLLİM ƏBƏDİYYƏTƏ HÖKM EDƏN İNSANDIR

***Dəyərli ziyalı, savadlı, pedaqoq, mehriban dost Haley Bayramovu amansız ölüm bizdən aldı.***

Haley Bayramov əlli il idi ki, Marneuli Bələdiyyəsinin Sabirkənd ictimai məktəbində riyaziyyat fənnini tədris edirdi. Və eyni zamanda dərs hissə müdiri vəzifəsində çalışırdı.

Əlli il əlli dəfə məzunların məktəbi bitirməsi deməkdir, yəni Haley müəllimi əlli buraxılış məzunlarını uğurla, sevgi ilə xoş arzularla yola salmışdır. Məhz buna görə hər kəs kollektiv, şagirdlər həmişə onu çox sevmiş, dəyərli insan kimi, əvəsiz riyaziyyatçı kimi, ağasaqqal kimi ona böyük ehtiram bəsləmişlər.

Haley müəllimi fevral ayının 22-də çox böyük kədərlə, göz yaşları ilə son mənzilə yola saldıq. Həmin gün bir müəllim üçün "son zəng" vuruldu.

Xatirəsi bizim üçün əzizdir. Dəyərli Haley müəllim, sən müəllimlər müəllimisən və kollektivimiz səni heç vaxt unutmayacaq...



Nur içində yatasan! Amin!

**Marneuli Bələdiyyəsinin Sabirkənd ictimai məktəbinin kollektivi.**

## BAŞSAĞLIĞI

"Gürcüstan"ın kollektivi qəzetin əməkdaşı Binnət Məmmədova əzizi, Marneuli Bələdiyyəsinin Böyük Muğanlı kənd sakini **Sədrəddin Salman oğlu Allahverdiyevin** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.



**Allah rəhmət eləsin!**

## ELAN

"Gürcüstan" qəzetində "Soruşun-cavab verək" adlı hüquq məsləhəti güşəsi fəaliyyət göstərir. Bu guşədə hüququn bütün sahələrinə (İnzibati, Mülki, Cinayət və s.) aid məsələlərlə bağlı sizi maraqlandıran istənilən suala cavab ala bilərsiniz

Guşənin aparıcısı təcrübəli hüquqşünas, Gürcüstan Vəkillər Assosiasiyasının üzvü **Robinzon Levanoviç Papidzedir**.

**Əlaqə telefonu: +995 593 97 85 15;**

**Ünvan:** Tbilisi şəhəri, Tsereteli prospekti, 142, birinci mərtəbə.

## SOYUQ HAVADA İSTİ GÖZLƏNTİ



**Foto E.Şahvələdindir.**

## ACARA BÖLGƏSİNDƏ MƏDƏNİ İRS SİYAHISINDA OLAN MƏSCİD YANIB



***Ötən gün axşam saatlarında Acara bölgəsinin Xulo rayonununda mədəni irs siyahısında olan məscid yanıb.*** Hadisə Xulo bələdiyyəsinin Satsixira kəndində baş verib. Hadisə zamanı xəsarət alan olmadığı bildirilir. Əraziyə yanğınsöndürənlər və xilasedicilər cəlb edilib. Yangının səbəbi hələ məlum deyil. Gürcüstan Müsəlmanları İdarəsi dini ocağın yanğın nəticəsində dağılması ilə bağlı dərin kədərini ifadə edib. Qurum məscidin qısa zamanda bərpa olunacağına ümidvarlıq ifadə edib. Qeyd edək ki, məscidin inşa tarixi XVIII əsrin sonu —XIX əsrin əvvəllərinə aid edilir.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი“ ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor: Xələddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı: Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə. E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444 Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur. Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.